www.sesqazeti.az
facebook Ses Media Holding
səs

# I Avropa Oyunları dünyanın diqqət mərkəzindədir

*Azərbaycan I Avropa Oyunlarını yüksək səviyyədə təşkil etməklə müasir idman ölkəsi olmasını da isbatlayır*

***Azərbaycanda keçiriləcək I Avropa Oyunlarına təxminən 90 gün qalır. Artıq 2012-ci ilin dekabrında tikintisinə başlanılmış Bakı Olimpiya Stadionunun istismara hazırlığı ilə bağlı akt da imzalanıb və müvafiq icra hakimiyyəti tərəfindən obyektin istismarına icazə verilib. Eyni zamanda, oyunların keçirilməsi üçün nəzərdə tutulmuş digər idman infrastrukturlarının hazırlıq vəziyyətinə gətirilməkdədir. Elə ötən gün Prezident İlham Əliyev, xanımı, birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri paytaxtın Biləcəri qəsəbəsində Bakı Atıcılıq Mərkəzinin açılışında iştirak ediblər.***

Əlbəttə ki, belə müasir idman komplekslərinin istifadəyə verilməsi “Bakı-2015” ilk Avropa Oyunları zamanı müvafiq idman növləri üzrə də yarışların yüksək səviyyədə keçirilməsinə imkan yaradacaq. Belə müasir idman qurğularının istifadəyə verilməsi, mövcud komplekslərin ən yüksək səviyyədə yenidən qurulması və yeni idman obyektlərinin inşası bir daha sübut edir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda başlanılan bütün layihələr uğurla, həm də vaxtında icra olunur. Müasir idman qurğularının yalnız Bakıda deyil, eləcə də regionlarda inşası isə ölkəmizdə gənclərin idmana marağının artırılması və idmanın kütləviliyinin təmin edilməsi istiqamətində atılan addımların ardıcıl xarakter aldığını nümayiş etdirir. Bu cür layihələrin reallaşdırılması, eyni zamanda, gənc nəslin həm fiziki, həm də mənəvi cəhətdən sağlam yetişməsində də mühüm rol oynayır. Bütün deyilənlərin fonunda əminliklə demək olar ki, Azərbaycan I Avropa Oyunlarını yüksək səviyyədə təşkil etməklə müasir idman ölkəsi olmasını da isbatlayır.

Lakin etiraf etmək lazımdır ki, Azərbaycanın I Avropa Oyunlarını yüksək səviyyədə hazırlaşması heç də hər kəsi sevindirmir. Anti-Azərbaycan dairələri, erməni lobbisinin təsiri altında olan beynəlxalq QHT-lər və ölkəmizdəki “5-ci kolon” bütün cəhdlərilə Azərbaycanın uğurlarına kölgə salmağa və beynəlxalq idman yarışının keçirilməsinə mane olmağa çalışırlar. Amma o da bəllidir ki, qərəzli qüvvələrin əməlləri qarşılıqsız qalır və diqqət cəlb etmir. Biz bunu elə dünya mətbuatının I Avropa Oyunlarına ayırdığı diqqətdən və dərc etdiyi materiallardan sezirik.

Belə ki, Fransada gündəlik nəşr olunan “Le Parisien” və “La Croix” qəzetlərində Azərbaycanda keçiriləcək birinci Avropa Oyunlarına hazırlığın gedişindən bəhs edən məqalələrdə Xəzər dənizi sahilində yerləşən və nəhəng enerji ehtiyatlarına malik Azərbaycanda keçiriləcək birinci Avropa Oyunlarının açılışına az müddətin qaldığı xatırlanır: “Azərbaycanın idmanı sevən və onun gələcəyini yaxşı başa düşən, siyasi məqsədlərə nail olmaq üçün idmandan necə istifadə etməyi bacaran Prezidenti var. Məhz Prezident İlham Əliyevin idmanın inkişafına qayğısı sayəsində Azərbaycanda mühüm və yaddaqalan beynəlxalq yarışların keçirilməsi artıq ənənə halını alıb. “Bakı-2015” birinci Avropa Oyunları da bu ənənənin parlaq bir səhifəsi olacaq”. İtaliya KİV-lərində də ilk Avropa Oyunlarının Romada keçirilmiş təqdimat mərasimi ilə bağlı reportajlar, yazılar, videosüjetlər yer alır.

Məlumatlarda “Bakı-2015” ilk Avropa Oyunlarının qitənin idman tarixində önəmli yer tutacağı, bu yarışların güclü idmançılar yetişdirəcəyi qeyd olunur. Vurğulanır ki, Avropa bu tədbirə ilk ev sahibi olaraq Azərbaycanı seçib. İlk Avropa Oyunları haqqında məlumatların yer aldığı məqalələrdə diqqətə çatdırılır ki, 17 gün ərzində Avropanın bütün ölkələrindən olan 6 mindən çox atlet idmanın 20 növü üzrə 253 dəst medal uğrunda mübarizə aparacaq.

Niderlandın “The Holland Times” qəzetinin mart buraxılışının bir səhifəsi bütünlüklə “Bakı-2015” ilk Avropa Oyunlarına həsr olunub. Məqalədə Avropa Oyunlarının tarixindən bəhs edilir. Bildirilir ki, Avropa Oyunları 2012-ci il dekabrın 8-də Romada Avropa Olimpiya Komitəsinin Baş Assambleyasında təsis olunub. Həmin toplantıda Avropa dövlətlərinin Milli Olimpiya komitələrinin böyük əksəriyyəti Avropa Oyunlarının təsis edilməsinin və bu yarışın ilk dəfə Azərbaycanda keçirilməsinin lehinə səs verib.

Yazıda “Bakı-2015” ilk Avropa Oyunlarının rəsmi simvolları olan ceyran və nar barədə də oxuculara məlumat verilir. “San-Marino Notizie” xəbər portalında da “Bakı-2015” ilk Avropa Oyunlarına 100 gün qalır” sərlövhəli məqalə yayılıb. Məqalədə qeyd olunur ki, bu il keçiriləcək ilk Avropa Oyunlarına Azərbaycanın paytaxtı Bakı ev sahibliyi edəcək. Bu həyəcanlı və möhtəşəm idman tədbirinə San-Marinodan olan idmançılardan ibarət geniş nümayəndə heyəti də qatılacaq. İlk Avropa Oyunlarının Bakıda keçirilməsi haqqında qərar 2012-ci ilin dekabrında Avropa Olimpiya Komitəsinin (AOK) Romada təşkil edilmiş Baş Assambleyasında da qəbul edilib.

Britaniyanın “The Guardian” qəzeti də Bakıda keçiriləcək ilk Avropa oyunlarından bəhs edib. Məqalədə “Bakı-2015”-in baş əməliyyat direktoru Simon Kleqqin sözlərinə istinadla qeyd edilir ki, Avropa oyunlarının qitənin idman təqvimində xüsusi yer tutacağı şübhə doğurmur. Avropa cüdo çempionatının da oyunlara əlavə edilməsi bunun daha bir sübutudur. S.Kleqq qeyd edib ki, ilk dəfə keçirilməsinin doğurduğu çətinliklərə baxmayaraq, ilk Avropa oyunları bundan sonra dörd illik beynəlxalq səviyyəli idman tədbiri olacaq. Yazıda, həmçinin Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkinin fikirlərinə yer verilib. O, qeyd edib ki, Avropa Oyunları Olimpiya yarışlarının əsas təsnifat marşrutlarından biri olacaq.

Böyük Britaniyanın nüfuzlu “Economia” jurnalında da bu il iyunun 12-dən 28-dək keçiriləcək “Bakı-2015” birinci Avropa Oyunları ilə bağlı məqalə dərc olunub. Yazıda Azərbaycanın 2012-ci ildə ev sahibliyi etdiyi “Eurovision” Mahnı Müsabiqəsi kimi mötəbər beynəlxalq tədbirlərin keçirilməsində qazandığı təcrübədən də ətraflı bəhs olunur. Qeyd edilir ki, Avropa Oyunları ərəfəsində Bakıda sürətli tikinti, abadlıq-quruculuq işləri aparılır, nəqliyyat infrastrukturu yenilənir. Paytaxtda yeni aerovağzal kompleksi istifadəyə verilib.

Jurnal yazır ki, Avropa Oyunlarına ev sahibliyi Azərbaycana gələcəkdə mötəbər idman yarışlarını keçirməyə imkan verəcək. Bakıda keçiriləcək Şahmat Olimpiadası və “Formula-1” üzrə Avropa Qran-pri yarışları, 2017-ci ildə təşkil ediləcək IV İslam Həmrəyliyi Oyunları, “Avro-2020”-nin final mərhələsinin bir neçə qarşılaşması məhz bu yarışlardandır.

Bir sözlə, göründüyü kimi, Avropa Oyunları kimi mühüm bir tədbirin keçirilməsi ilə bağlı qərarın qəbul edildiyi 2012-ci ildən 2015-ci ilə qədərki zamanın qısa olmasına baxmayaraq, bu oyunlara yüksək səviyyədə hazırlıq gedir. Əlbəttə ki, həmin qərarın qəbul edildiyi ilk vaxtlarda oyunlara hazırlıq üçün cəmi iki il yarım vaxtın olması ilə əlaqədar müəyyən narahatlıqlar yarana bilərdi, amma görülən işlər, həyata keçirilən layihələr yarışların uğurla keçiriləcəyini deməyə əsas verir. Oyunları izləmək üçün dünyanın müxtəlif ölkələrindən Bakıya gələcək təkcə idman ictimaiyyətini deyil, siyasi, iqtisadi, mədəni dairələri də təmsil edən çoxsaylı insanlar bunun şahidi olacaqlar.

***“Səs” Analitik Qrupu***